# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 89 (1217) 14 may - 16 may 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ




# Qarabağın bir parçası - Ağcabədi

(Əvvəli ötən saylarımızda)

**Bu gün faktiki olaraq cəbhə bölgəsi sayılan və sərhəddində hər gün düşmən atəşlərinin səsi eşidilən Ağcabədidə həyat qaynayır. Bu həm insanların torpağa bağlılığı ilə, həm Ali Baş Komandana inamı ilə, həm də yerli rəhbərliyin daima onlarla təmasda olması ilə bağlıdı. Bir az da dəqiq ifadə etsəm, insanlar yerli icra strukturları ilə birbaşa rahat və canlı münasibəti istənilən vaxt qura bildikləri üçün istənilən problemin həlli ilə də bağlı böyük çətinliklər yaşamırlar. Bu da onlara imkan verir ki, öz üzərlərinə düşən vəzifə ilə yanaşı bir vətəndaş mövqeyi də ortaya qoya bilsinlər. Təbii ki, insanın işi, evi, necə deyərlər, həyatı təmin edilmiş olanda onun qayğıları da azalır. Əgər yolunuz Ağcabədiyə düşsə, dediklərimin siz də şahidi ola bilərsiniz.**



"Dədə Qorqud" filmində bir sonluq var. Orda vurğulanır ki, torpağı əkib-becərmirsənsə, qorumağa dəyməz. Bax bu mənada Ağcabədidə torpağı çox sevirlər, onun məhsuldarlığını dəyərləndirməyi bacarırlar, aqrotexniki xidmətdən, qulluqdan yararlanmaqda peşəkardılar və torpağın qüvvətli olması üçün dövlətin ayırdığı yardımlardan vaxtlı-vaxtında istifadə edə bilirlər.

Məhsul istehsalının artımı, həyat səviyyəsini yüksəltməklə yanaşı, adamların çoxşaxəli əkinçiliyə də, eləvə məhsul əldə etməyə də marağını artırır. Burda bir məqamı xüsusi qeyd etmək lazımdır: o da Ağcabədidə tikilən, istifadəyə verilən hər bir obyektin, hər bir binanın rayon üçün gərəkliyidir. Yəni istifadəyə verilən, tikintisi başa çatdırılan bütün binalar, bütün obyektlər sadəcə rayonun görkəmini dəyişmir. O həm də iş yeri kimi, istirahət yeri kimi fəaliyyət göstərir. Yəni hansısa bir muğam evini, şahmat məktəbini, gənclər mərkəzini və sairəni ancaq tədbirdən-tədbirə yada salmaq bu rayonda yolverilməz bir haldır.

Lap tam çılpaqlığı ilə vurğulasam, həmin ünvanlar demək olar ki, hər gün öz məqsədinə uyğun şəkildə istifadə edilir. İstər şahmat evində, istər muğam mərkəzində, istər gənclər mərkəzində və sairədə bunun şahidi olmaq üçün Ağcabədiyə səfər etmək kifayətdir. Bu da ondan xəbər verir ki, rayon rəhbərliyi dövlət başçısının tələbinə əməl edərək insan amilini xüsusi diqqət mərkəzində saxlayır. Bir anlıq təsəvvür edin: hansısa bina tikilib, içinin bütün avadanlıqları quraşdırılıb, ağzı isə qıfıllanıb. Bu heç kimə lazım olmayan sadəcə dörd divardı.

Ancaq ondan yararlanırlarsa, buradan kimlərsə evinə əməkhaqqı kimi çörək aparırsa, bu artıq insana həm dövlət qayğısıdı, həm də xidmət deməkdi. Azərbaycan prezidenti İlham Əliyev də icra strukturlarından, aidiyyəti orqanlardan məhz bunu tələb edir. Sevindirci haldır ki, bu tələb Ağcabədidə vergülündən nöqtəsinə qədər icra edilir. Məhz rəqəmlər də dediklərimizi birmənalı şəkildə təsdiqləyir. Yəni ötən il ərzində 1200 daimi olmaqla 2506 yeni iş yeri açılmışdısa bu rəqəm artıq xeyli yenilənib. Bir anlıq həmin o daimi işlə təmin olunmuş insanların sevincini, məmnunluğunu göz önünə gətirəndə o qədər də ailənin sevincini təsəvvür etmək mümkün olur. Bax bu yerdə işi işbilən tapşırılmasının bəhrəsi də təbii ki, ortaya çıxır.

Yeri gəlmişkən, onu da xatırlatmaq lazımdır ki, bu gün Ağcabədidə dövlət qurumları xətti ilə istər əhalinin sosial müdafiəsi, istər sosial müdafiə fondu, istər məşğulluq mərkəzi və digər qurumlar rayon icra hakimiyyətinin rəhbərliyi altında günün tələbləri səviyyəsində işlərini qura biliblər. Bu da sosial yardıma ehtiyacı olanların, əlillərin, təqaüdçülərin problemlərinin vaxtında çözülməsinə imkan veribdi.

> **"Hər bir kənd təsərrüfatı əməkçisi, hər bir fermer, sahibkar, ümumiyyətlə kənd təsərrüfatı ilə məşğul olan və bu sahəyə diqqət yetirmək məsuliyyəti daşıyan təşkilatlar, qurumlar birmənalı şəkildə zəruri olan bütün tədbirləri görməlidilər. Elə etməliyik ki, insanlarımız öz əməklərinin bəhrəsini görsünlər və heç bir ərzaq problemi ilə qarşılaşmasınlar".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Üstəlik, rayonda yaşayan müharibə iştirakçıları, müharibə əlilləri, Çernobl hadisəsinin iştirakçıları və eləcə də kimsəsiz, yaşlı insanların qayğı ilə əhatə olunmasına öz müsbət təsirini göstəribdi.

Rayonda hər bir vətəndaş üçün iş yerinin yaradılması diqqət mərkəzindədi. Yəni burada kişilər üçün ayrıca bir limit nəzərdə tutulmayıb. Açılan iş yerlərində hər kəsin peşəsinə, təhsilinə və ümumiyyətlə bacarığına görə, çalışmaq imkanı var.

Deməli, Ağcabədi rayonu özünün rəhbərlərinin peşəkarlığı nəticəsində hər il yeni iş yerlərinin açılması istiqamətində düzgün və uğurlu bir yol müəyyənləşdiribdi. Bu yolun əsas məqsədi sahibkarlara, ümumiyyətlə, Ağcabədidə iş yeri açmaq istəyənlərə şərait yaratmaqdı.

**Bəli, təkrar-təkrar vurğulasam da Ağcabədidə insan amili çox önəmlidir və bu önəmin gənclərə olan münasibətdə xüsusilə hiss etmək mümkündür. Belə ki, rayonda görülən işlərin həm icrasında, həm də həmin obyektlərdən yararlanmaqda gənclər xüsusi faiz təşkil edir. Gələcəyimiz olan bu insanlara həm işləmək, həm oxumaq, həm istirahət etmək üçün Ağcabədidə mümkün variantların hamısından istifadə olunur. Buna görə də bu rayonda təhsilə bütün Azərbaycanda olduğu kimi yüksək diqqət və tələbkarlıq var.**

**(Ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***